AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ

SƏRƏNCAM

“Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən zəmanət mexanizmi çərçivəsində sahibkarlıq subyektlərinə veriləcək kreditlər üzrə ümumi kredit portfelinin həcminin və həmin portfel üzrə dövlət zəmanəti ilə təmin ediləcək məbləğin yuxarı həddinin təsdiq edilməsi haqqında

“Sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 iyun tarixli 680 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə:

1. İşğaldan azad edilmiş ərazilər, habelə Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, Azərbaycan Respublikasının digər ərazilərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə pilot layihə kimi 2030-cu il dekabrın 31-dək tətbiq olunacaq ümumi kredit portfelinin həcmi 500.000.000,0 (beş yüz milyon) manat və həmin portfel üzrə dövlət zəmanəti ilə təmin ediləcək məbləğin yuxarı həddi 250.000.000,0 (iki yüz əlli milyon) manat həcmində müəyyən edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 3 ” “ noyabr ” 2026-cı il

№ 826s